# İnsan alveri prosesində tələb amilinin rolu

**Gülnar Nəzərova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Əmək və Sosial Problemlər üzrə ETTM*
**E-mail:** sqtib@yahoo.com

**Rəyçilər:** f.ü.e.d., prof. Q.Y. Abbasova,
AMEA-nın müxbir üzvü, t.ü.e.d. M.M. Məmmədova

**Açar sözlər:** insan alveri, insan alveri qurbanı, tələb və təklif faktorları, cinsi xidmətin qanuniləşdirilməsi

**Ключевые слова:** торговля людьми, жертвы торговли людьми легализация проституции, толкать и тянуть факторы

**Key words:** human trafficking, victim of human trafficking, push and pull factors, legalization of prostitution

1949-cu ildə BMT Baş Assambleyası "İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında" Konvensiya qəbul edir [1]. 2000-ci il 15 noyabr tarixində isə "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiya və Birləşmiş Millətlər Təşkilatının Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan, "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokol qəbul edilir. Protokolda qeyd olunur ki, yoxsulluq, inkişafın zəif getməsi, hər kəs üçün bərabər imkanların olmaması kimi iqtisadi faktorlar müasir köləliyin əsas səbəbləridir [2]. 2013-cü ildə Avropa Parlamenti fahişəliyi "qadınlara qarşı zorakılıq və insan hüquqlarının pozulması" siyahısına daxil etdi.

BMT-nin hesabatlarında hər il 4 milyon insanın bir ölkədən digər ölkəyə satışı, ABŞ Dövlət Departamentinin hesabatında isə 700 mindən 2 milyona yaxın insanın satılması qeyd edilir. Eyni zamanda həmin mənbədə qeyd olunur ki, satılan insanların 80%-i qadın və qızlardır. Məcburi əmək (o cümlədən uşaq əməyi) və cinsi istismar qurbanlarının sayı 4 milyondan 27 milyona qədər təşkil edir. Bu rəqəm, qeyd edilən təşkilatların və Köləliyə qarşı Beynəlxalq İnsan Hüquqlarının Müdafiəsi Təşkilatının (Anti-Slavery International Organization) əməkdaşları tərəfindən aparılan tədqiqatlar nəticəsində əldə olunmuşdur [3].

Beynəlxalq Əmək Təşkilatının hesabatına əsasən insan alverinin illik maliyyə dövriyyəsi 150 milyard dollar təşkil edir ki, onun 99 milyard dolları cinsi istismar, 51 milyard dolları isə ev qulluqçuluğu, kənd təsərrüfatı və digər iqtisadi sahələr də daxil olmaqla məcburi əməyin payına düşür [4]. BƏT-in hesabatına əsasən hər il 21 milyon insan məcburi əmək qurbanı olur ki, onun da 11,4 milyonunu qadın və qızlar, 9,5 milyon nəfərini kişilər təşkil edir [5]. BƏT-in məlumatına əsasən cinsi istismara cəlb olunanların 98%-i qadınlardır. Lakin 2% haqqında heç bir mənbədə məlumata rast gəlinmir. Bu isə ondan qaynaqlanır ki, məişət zorakılığına məruz qalan kişilər kimi cinsi istismar qurbanı olanlar da bu problemi gizlətməyə çalışırlar. Məcburi əmək qurbanlarının isə 45%-i kişilər və oğlanlar təşkil edir. Müəyyən olunan qadın qurbanların faiz nisbətinə baxdıqda, onların 58%-i cinsi istismar, 36%-i məcburi əmək qurbanlarıdır [6]. Araşdırmalar göstərir ki, insan alverinin qurbanına çevrilən qadınların yaş həddi əsasən 20-35 yaş arasında olur. İnsan alverçiləri bu yaşda olan qızları öz işlərinə daha

çox cəlb edirlər. Statistik məlumatlardan da göründüyü kimi insan alveri qurbanlarının böyük əksəriyyəti cinsi istismar qurbanı olan qadın və qızlardır. Bu isə problemlə birbaşa əlaqəsi olan fahişəliyin problemə təsirinin araşdırılması zərurətini yaradır.

İstər inkişaf etmiş, istər iqtisadi baxımdan zəif olan ölkələrdə fahişəlik problemi mövcuddur. Hər ölkədə məsələyə ölkənin qanunvericiliyinə müvafiq olaraq yanaşılır. Dünyanın 196 ölkəsindən 55-də ödənişli cinsi xidmət leqallaşdırılıb. ABŞ-ın bəzi ştatlarında qanuni olsa da bir çox ştatda ödənişli cinsi xidmət qanunla qadağandır. İsveçrədə 1942-ci ildən qadınların, 1992-ci ildən bəri isə kişilərin cinsi xidmət göstərməsi qanuniləşdirilib. Türkiyə, Almaniya, İspaniya, Yunanıstan, Niderland da bu proses leqal hesab olunur. Türkiyədə fahişəlik qanunla qadağan olunmasa da bu, xarici vətəndaşlara aid deyil. Burada məqsəd ölkənin insan alveri ilə bağlı təyinat ölkə rolunu oynamasının qarşısını almaqdır. [7]. İsveçdə isə bu xidmətdən istifadə qanunla qadağan olunsa da xidmətin təklif olunması leqal hesab olunur [8]. Lakin elə ölkələr də var (məs. İran), orada fahişəliyə görə ölüm hökmü mövcuddur.

ABŞ-da il ərzində təxminən 500.000, İspaniyada 400.000, Böyük Britaniyada 100.000, Almaniyada 70.000, Fransada 40.000, İsveçdə isə1000 nəfər cinsi xidmət göstərir. Lakin fahişəliyin ən geniş yayıldığı ölkələr sırasına Niderland, Filippin, Kolumbiya, İndoneziya, İspaniya, Brazilya, Tayland üstünlük təşkil edir ki, onlardan yalnız Filippin və İndoneziyada ödənişli cinsi xidmət qanunla qadağa olunsa da cəmiyyətdə bu xidmətə qarşı qınaq mövcud deyil. Müşahidələr də göstərir ki, cəmiyyətdə baş verən problemlərin yayılmasında, eləcə də, aradan qaldırılmasında dəyərlər qanunlardan daha böyük təsirə malikdir. Bu ölkələrdə fahişəliyin yayılmasında onlayn xidmətlərin də rolu böyükdür [9].

Qeyd etməliyik ki, zəif inkişaf etmiş ölkələr ödənişli cinsi xidmətlə bağlı daha çox mənşə ölkə rolunu oynayır. Təyinat ölkə rolunu oynadıqda isə əsasən yerli vətəndaşlar ölkə daxilində cinsi xidmət göstərir. Belə ki, burada tələb-təklif yanaşması təzahür edir. Belə ki, təklif faktoru mənşə ölkələrdəki sosial dəyişikliyin nəticəsidir. Mənşə ölkələrdə dini-etnik konfliktlər, təbii fəlakətlər, kəskin əhali artımı, ağır iqtisadi problemlər müşahidə olunur. Tələb faktoru təyinat ölkəsindəki sosial-iqtisadi dəyişikliyin nəticəsi kimi təzahür edir. Belə ki, insanların istismar edildiyi ölkə təyinat ölkəsi adlanır. Bu tip ölkələrdə, əsasən, işçi çatışmazlığı, yaxşı təşkil edilmiş sosial tədbirlər, yüksək iqtisadi vəziyyət, demokratik sistem, sosial-siyasi stabillik müşahidə olunur. Təyinat ölkələr əsasən iqtisadi cəhətdən inkişaf etmiş, demokratik dəyərlərin, insan hüquqlarının tanındığı ölkələr olduğundan burada şəxsin cinsi xidmət göstərməsi də onun hüququ kimi tanınaraq leqallaşdırılır. Lakin statistik məlumatlar göstərir ki, cinsi xidmətin qadağan olunduğu ölkələrlə müqayisədə qanuniləşdirildiyi ölkələrdə fahişəlik daha geniş yayılıb. Çünki bu xidmətdən istifadə edənlər təhlükəsizlikləri üçün qanuni xidmət göstərənlərə üstünlük verir və bu isə həmin ölkələrdə ödənişli cinsi xidmətə tələbatı artırır. İnsan alverçiləri də əsasən cinsi xidmətə tələbatın ən çox olduğu ölkələrə zərərçəkmişlərin daşınmasını həyata keçirirlər. Beləliklə, bəzi ölkələrdə insanlara verilən bu azadlıq onların daha böyük problemlə qarşılaşmasına gətirib çıxarır.

İsveçdə xidməti təklif edənlərə deyil, istifadə edənlərə qarşı cəza tətbiq edildiyindən bu qisim ölkələrdə insan alveri faktları az qeydə alınır. Azərbaycanda isə İsveçin əksinə olaraq cinsi xidmət qanunla qadağan olunsa da xidmətdən istifadə edənlərə (tələbi formalaşdıranlara) qarşı heç bir cəza tətbiq edilmir [10]. Bu proses qadınların istismarını və insan alveri qurbanına çevrilməsini sürətləndirir. Çünki xidmətdən istifadə edənlər onlara qarşı heç bir sanksiya tətbiq edilməyəcəyini bildiyindən şəxsi istismar etməkdə maraqlı olurlar.

Azərbaycanda Milli Fəaliyyət Planının “İnsan alveri cinayətlərinə qarşı cinayət təqibinin

təkmilləşdirilməsi" bəndinə müvafiq olaraq İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılan cinayət-axtarış tədbirləri nəticəsində 2007-ci ildən etibarən insan alveri, əxlaqsız yuva saxlama, 2008-ci ildən etibarən fəhişəliyə cəlb edilmə, yetkinlik yaşına çatmayanı fəhişəliyə cəlb etmə, seksual xarakterli hərəkətlərə məcbur etmə, pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma ilə bağlı cinayət faktların artım tendensiyası aşkarlanmışdır. Həmin dövrdə insan alverçiləri və insan alveri qurbanlarının sayında da ən yüksək göstərici qeydə alınmışdır. 2010-2011-ci illərdə göstərilən cinayətlərin sayında azalma müşahidə edilmiş, 2014-cü ildə isə fahişəliyə cəlb edilmə ilə bağlı cinayətlərın sayında ən yüksək artım müşahidə edilmişdir. İnsan alveri və əxlaqsızlıq yuva saxlama cinayətlərinin ən çox müşahidə olunduğu il 2015-ci il olmuşdur (cədvəl 1).

Cədvəl 1.

Azərbaycanda insan alveri ilə bağlı cinayətlərin dinamikası (nəfər)

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cinayət faktları, cəmi | 162 | 215 | 283 | 403 | 340 | 212 | 169 | 222 | 228 | 272 | 317 |
| O cümlədən: | | | | | | | | | | | |
| İnsan alveri | 1 | 29 | 72 | 79 | 79 | 67 | 67 | 89 | 78 | 98 | 109 |
| Məcburi əmək | - | - | - | 1 | 3 | 1 | 2 | 2 | 3 | 4 | 7 |
| Fahişəliyə cəlb etmə | 54 | 57 | 49 | 116 | 92 | 62 | 43 | 45 | 69 | 76 | 57 |
| Yetkinlik yaşına çatmayanı fahişəliyə cəlb etmə | 4 | 7 | 8 | 10 | 5 | 2 | 2 | 2 | 3 | 2 | 1 |
| Əxlaqsızlıq yuvaları saxlama | 93 | 112 | 150 | 180 | 148 | 73 | 51 | 75 | 66 | 82 | 123 |
| Seksual xarakterli hərəkətlərə məcbur etmə | 5 | 5 | 1 | 10 | 3 | 2 | 2 | 4 | 6 | 5 | 6 |
| Pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma | 5 | 5 | 3 | 7 | 9 | 5 | 1 | 5 | 3 | 1 | 3 |
| İnsan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlər | - | - | - | - | - | - | - | - | - | 3 | 11 |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İnsan orqanlarının və ya toxumaların alqı-satqısı və transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə | - | - | - | - | 1 | - | 1 | - | - | 1 | - |
| Cinayət törətmiş şəxslər | 153 | 207 | 300 | 349 | 289 | 137 | 97 | 145 | 124 | 149 | 171 |
| O cümlədən: insan alverçiləri | 1 | 23 | 93 | 91 | 76 | 39 | 20 | 22 | 17 | 26 | 32 |
| İnsan alveri qurbanları | 1 | 86 | 101 | 78 | 91 | 34 | 29 | 53 | 56 | 54 | 63 |

Mənbə: http://www.insanalveri.gov.az

Deməli, həm ödənişli cinsi xidmət təklifinin qadağan olunduğu, həm də leqallaşdırıldığı ölkələrdə insan alveri cinayəti sürətlə artmaqdadır. Çünki cinsi xidmət göstərənlər bu xidməti əsasən iqtisadi çətinlik səbəbindən həyata keçirdiklərindən qadağanın olması onları bu problemdən uzaqlaşdırmaqda yetərli olmur. Eyni zamanda cinsi xidmətdən istifadənin və təklifin qadağan olunmadığı ölkələrdə də insanlar təhlükə hiss etmədiklərindən fahişəlik və bunun təsiri ilə yaranan insan alveri daha geniş yayılır. Lakin bu xidmətin leqallaşdırılmasının bir müsbət cəhəti var ki, bu da tibbi nəzarətin həyata keçirilməsi nəticəsində xəstəliklərin nisbətən qarşısının alınması ilə bağlıdır. Lakin o ölkələrdə ki, ödənişli cinsi xidmət təklif edənlərə qarşı deyil, istifadə edənlərə qarşı sanksiya tətbiq edilir, həmin ölkələrdə fahişəlik və insan alveri faktlarına az rast gəlinir. Bu baxımdan ölkələrin İsveç modelini tətbiq etməsi həm fahişəlik, həm də insan alveri ilə mübarizədə daha effektiv nəticəyə nail olunmasına gətirib çıxara bilər. Bununla yanaşı cəmiyyətdəki dəyərlər qanunlardan daha təsirli olduğundan problemə insanların münasibətinin dəyişməsi olduqca vacibdir.

**Məqalənin aktuallığı.** Məlumdur ki, insan alveri problemi bütün dünyada olduğu kimi Azərbaycanda da ən aktual problemlərdən biridir. Hazırda qloballaşan dünyanın bu sahədə təcrübəsi, o cümlədən müvafiq beynəlxalq təşkilatların həmin problemlərin həlli məsələlərinə maraq göstərməsi və əməli tövsiyələri insan alveri ilə mübarizəyə yeni yanaşmanın yaranması zərurətini doğurmuşdur.

**Məqalənin elmi yeniliyi.** Bir çox ölkələr cinsi xidmətin leqallaşdırılması ilə insan hüquqlarını müdafiə etdiklərini nümayiş etdirsələr də, bu məsələnin insan alverinin artmasına təsiri müəyyən edilməyib. Məqalədə bu iki məsələ arasındakı əlaqə əks olunub.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən insan alveri ilə mübarizə aparan qurumlar, bu sahədə elmi tədqiqat həyata keçirən şəxslər istifadə edə bilər, eyni zamanda insan alveri və fahişəliklə mübarizədə qanunvericiliyin təkmilləşməsində müsbət təsirə malikdir.

## Ədəbiyyat

1. http://www.un.org/en/events/slaveryabolitionday/

2. BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasını tamamlayan, "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması" haqqında Protokol, 2000.
3. http://www.antislavery.org/english/slavery_today/default.aspx.
4. http://www.ilo.org/global/about-the-ilo/ newsroom/ news/ WCMS _ 243201 / lang--en/index.htm.
5. http://www.ilo.org/global/topics/forced-labour/lang--en/index.htm.
6. http://www.stopvaw.org/Trafficking_Explore_the_Issue.html.
7. http://www.hesaplitatilfirsatlari.com/avrupada-fuhus-yasal-oldugu-6-ulke.
8. https://en.wikipedia.org/wiki/Prostitution_in_Sweden.
9. http://galeri.mynet.com/guncel/seks-turizminde-en-populer-10-durak-49237/8.
10. http://olaylar.az/news/problem/56876.

**Г. Назарова**

## Роль фактора потребности в процессе торговли людьми

### Резюме

В статье был рассмотрен эффект легализованной проституции на процесс торговли людьми. Секс-работники являются потенциальными жертвами торговли людьми. Если страны будут криминализовать факторы тяготения к проституции, это снизит торговлю людьми. Но в целом легализация проституции приведет к росту торговли людьми.

**G. Nazarova**

## The role of pull factors in the process of trafficking in human being

### Summary

The effect of legalized prostitution to the human trafficking process was reviewed in the article. Sex workers are potential victims of human trafficking. If countries would criminalize pull factors to prostitution it would decrease human trafficking. But generally legalization of prostitution will increase human trafficking.

**Redaksiyaya daxil olub:** 13.06.2018